# Prezidentin Münxen görüşləri Azərbaycana olan marağın göstəricisidir

"Fevralın 16-da Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində bir sıra maraqlı görüşlər keçirib. Onu da qeyd edək ki, Prezident İlham Əliyev Münxen konfransında, fevralın 7-də ölkəmizdə keçirilmiş prezident seçkilərindən sonra qalib dövlətin, xalqın dövlət başçısı kimi iştirak edir".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib. Deputat bildirib ki, dünya problemlərinin, təhlükəsizlik məsələlərinin həllinə həsr olunan bu konfransda Azərbaycanın dövlət başçısının da öz fikir və mülahizələri var. Konfrans çərçivəsində dövlətimizin başçısı ABŞ prezidentinin xüsusi koordinatoru Amos Hoxşteynlə görüşərkən Azərbaycan-Ermənistan məsələləri, ölkəmizin Cənubi Qafqazdakı mövqeyi, eyni zamanda enerji və digər məsələlər ilə bağlı müzakirələr aparılıb. Dövlət başçısının ən maraqlı görüşlərindən biri də İsrailin Prezidenti İsxak Hersoqla keçirilən görüş oldu. Təbii ki, Azərbaycan sülhsevər bir dövlət olaraq həm Fələstin xalqının gələcək taleyi, həm də İsrailin təhlükəsizlik məsələsi ilə bağlı ədalətli mövqeyi və tövsiyələri ilə diqqəti cəlb edib. Prezidentin Türkiyənin xarici işlər naziri Hakan Fidanla görüşü də diqqət çəkdi. Dövlət başçısı andiçmə mərasimindəki çıxışında da dönə-dönə qeyd etdi ki, Azərbaycan Türk Dövlətləri Birliyinin, türk dövlətlərinin dostluğunun və qardaşlığının birnömrəli təbliğatçısıdır və bu istiqamətdə gələcəkdə də uğurlu işlər aparmağı planlaşdırır: "Bu mənada ölkə rəhbərinin Türkiyənin xarici işlər naziri ilə Münxen konfransı çərçivəsində görüşü təkcə iki dövlət arasındakı münasibətlərə deyil, ümumiyyətlə, türk dövlətləri birliyinin inkişafı məsələlərinə həsr olunmuşdu. Prezident İlham Əliyevin Almaniyanın Şərqi Biznes Assosiasiyasının icraçı direktoru Mixael Harmsla görüşündə ölkəmizdə COP29-un keçirilməsinin öz növbəsində daha geniş miqyasda iqtisadi layihələrin reallaşdırılması potensialının gücləndirilməsi işinə xidmət etdiyi qeyd olunub".

Deputat vurğulayıb ki, Avropa bir tərəfdən Azərbaycanı demokratik ənənələrə, insan hüquqlarına "riayət eləməyə" çağırır, digər tərəfdən isə ölkəmizin Qərbə yardım göstərməsini xahiş edir. Bu, təbii ki, enerji təchizatı ilə bağlı olan yardımdır. Azərbaycan rəhbəri bir daha bəyan etdi ki, Qərb nə düşünürsə, düşünsün Azərbaycan xalqının, dövlətinin və hakimiyyətinin öz demokratik ənənələri, milli dəyərləri, dövlət maraqları var və bu maraqlar üzərində öz fəaliyyətini davam etdirir.

Deputatın fikrincə, Prezidentin ATƏT-in fəaliyyətdə olan sədri İan Borqla görüşü daha maraqlı məsələyə həsr olunub: "Təbii ki, dövlət başçısı ilə keçirilən bu görüşlərin hər birində nümayəndə heyətlərinin başçıları İlham Əliyevi yenidən prezident seçilməsi münasibətilə təbrik etdi. ATƏT-in fəaliyyətdə olan sədri də dövlət başçısını təbrik edərək gələcək fəaliyyətində uğurlar arzuladı".

A.İsgəndərov vurğulayıb ki, Prezident ATƏT-in fəaliyyətindən danışarkən təşkilatın lazımsız qurumlarının fəaliyyətinə son qoyulmalı olduğunu və onlardan birinin də ATƏT-in Minsk qrupu olduğunu vurğuladı: "Əslində, dövlət başçısı elan etdi ki, bu qurum uzun illər ərzində Azərbaycanla Ermənistan arasında sülh münasibətləri yaratmaq, Azərbaycanın işğal altında olan torpaqlarını azad etmək əvəzinə problemi dondurub. Onlara elə gəlib ki, bu işğal faktını azərbaycanlıların beynindən çıxarda və ədalətsiz sülhün imzalanmasına nail ola biləcəklər. Ancaq ATƏT-in Minsk qrupu onu dərk edə bilmədi ki, xalq heç vaxt öz torpağını başqasına verə bilməz".

Deputat bildirib ki, dövlət başçısının Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odil Reno-Basso ilə də maraqlı görüşü oldu: "Azərbaycan 1990-cı illərin Azərbaycanı deyil. Prezident İlham Əliyev andiçmə mərasimində də qeyd etdi ki, bizim heç bir dövlətdən xahişimiz yoxdu, nəsə istəmirik, ancaq dünya istəyirsə, bizim ona verəcəyimiz cavab müsbət olur. Bu gün AYİB-in Azərbaycanla münasibətləri qarşılıqlıdır.

Münxen Təhlükəsizlik Konfransında aparılan danışıqlar bir daha göstərdi ki, Azərbaycan güclü dövlətdir, yüksək nüfuz sahibidir. Hər bir dövlət başçısı, hər bir şirkət rəhbəri bu konfransda Prezident İlham Əliyevi görmək istəyir. Bu yüksək nüfuzun göstəricisidir. Azərbaycanın sözü və qətiyyəti imkan verir ki, o, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirsin və ya enerjiyə ehtiyacı olan Avropa dövlətlərinə yardım göstərsin. Digər tərəfdən, sülh və əməkdaşlıqla bağlı nə mümkündürsə, Azərbaycan bunu edə bilir".

Azərbaycanın qalib tərəf olmasına baxmayaraq, Ermənistana sülh müqaviləsini təqdim edən tərəf olduğunu xatırladan deputat bildirib ki, Ermənistan Qərbdən idarə olunduğuna görə gələcəkdəki uğurlu işlərin başlanğıcını görə bilmir. Kənardan diktə edənlər də Ermənistana bu uğuru arzulamır. Münxen konfransı dünya dövlətlərinin Azərbaycana olan marağını bir daha göstərdi. Bu, Azərbaycanın təkcə Cənubi Qafqazda deyil, həm türk-müsəlman dünyasında, həm Mərkəzi Asiya zonasında, həm də Qərbdə böyük nüfuza malik dövlət olduğunu sübut edir. Prezident İlham Əliyev Azərbaycanın uğurlu daxili və xarici siyasətini dünya dövlətlərinə bir nümunə kimi göstərməyə nail olub.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 20 fevral, № 38.- S.11.